Ən çox oxunan qəzet

№ 125 (4820), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

14 iyul (şənbə)

www.sherg.az

## Lənkəranda iki nəfər dənizdə batıb



**Lənkəranda iki nəfər dənizdə çimərkən batıb. Onlardan birinin meyiti sudan çıxarılsa da, digərinin axtarışları davam edir.**

Hadisə rayon ərazisində qeydə alınıb. Dənizdə boğulanlardan biri - rayon sakini 1995-ci il təvəllüdlü Şəmsəddin Rahim oğlu Aslanovun meyiti sudan çıxarılaraq müayinə olunmaq üçün aidiyyəti üzrə təhvil verilib.

(Səh.9)

## Məbləğ on dəfə azaldılacaq

Qazaxıstanda kasıblar üçün vergi güzəşti tətbiq olunacaq



Qazaxıstan Prezidenti Nursultan Nazarbayev parlamentin hər iki palatasının birgə iclasında əməkhaqqısı aşağı olan vətəndaşlardan tutulan verginin məbləğini on dəfə azaltmağı təklif edib.

(Səh.2)



## İrəvan dezinformasiya yayır

XİN: "Ermənistanın hərəkəti BMT nizamnaməsinə hörmətsizlikdir"

**"Ermənistan KİV-nin Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin hər hansısa bir sənədinin BMT-nin saytında yerləşdirilməsi barədə xəbəri yalan və dezinformasiyadan başqa bir şey deyil".**

Bu barədə Lent.az-a Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev bildirib. Onun sözlərinə görə, bu kimi ucuz vasitələrlə Ermənistanın yeni hakimiyyəti ilk növbədə Ermənistan ictimaiyyətini aldatmağa çalışır.

(Səh.3)

## Faktlar təsdiq edir ki...

...Gəncə hadisələri qabaqcadan planlaşdırılıb və bilavasitə xaricdən idarə edilib



Faktlar təsdiq edir ki, Gəncə hadisələri qabaqcadan planlaşdırılıb və bilavasitə xaricdən idarə edilib.

(Səh.6)

# "Onların əlində terrordan başqa heç bir vasitə qalmayıb"



### Prezident İlham Əliyev: "Cinayətkarlar və onların arxasında dayananlar öz məkrli niyyətlərinə çata bilməyəcəklər"

**Dünən Azərbaycan Prezidenti İlham Əliyev respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirib. İclasda çıxış edən dövlət başçısı son günlər Azərbaycanda baş verən olaylara toxunub və bir sıra önəmli məqamlara diqqət çəkib.** Bütün Azərbaycan xalqı bu qanlı cinayəti birmənalı olaraq pisləyir

Prezident bildirib ki, iyulun 3-də və 10-da Gəncədə törədilmiş cinayət aktları dövlətçiliyə qarşı törədilmiş cinayətlərdir. Dövlət başçısı xatırladıb ki, bu cinayətləri törədən qruplar Azərbaycanda sabitliyi pozmaq istəyir...

(Səh.2)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## Azər Süleymanov: Azərbaycan bu sınaqdan da alnıaçıq çıxdı

**Azərbaycanın imicinə zərbə vurmağa, ölkə daxilində çaşqınlıq, xaos yaratmağa çalışan qüvvələr istəklərinə nail ola bilmədilər.** Bu sözləri müsahibəsində Gürcüstan parlamentinin deputatı Azər Süleymanov söyləyib.

Deputat deyib ki, pozucu qüvvələr öz məqsədlərinə çatmaq üçün hətta, dini etiqad məsələlərindən də istifadə etməyə çalışırlar.

(Səh.2)

# Sürücülərin xeyrinə qərar qəbul edildi



"Bir gün ərzində protokol sistemə vurulmasa, yararsız hesab ediləcək"

(səh.10)